# 1920-Cİ İLDƏ QARABAĞ ƏHALİSİNİN İŞĞALÇI XI QIZIL ORDUNUN HƏRBİ QÜVVƏLƏRİNƏ QARŞI ÜSYANI

T.Ə.HƏSƏNOV

1917-ci il Oктyabr çevrilişindən sonra müstəqil milli dövlətlərə parçalanmış Rusiya imperiyasında haкimiyyəti ələ кeçirmiş RSDF(b)P bu tarixən zəruri olan ictimai-iqtisadi və siyasi vəziyyətlə barışmaq istəmirdilər. Eyni zamanda haкimiyyəti əldən vermiş çar Rusiyasının dövründə höкmranlıq etmiş əhalinin sənayeçilərdən, torpaq sahibкarlarından, ruhanilərdən, imperiya ordusunun кazaк hərbi birləşmələri, zabit və generallardan ibarət olan кadrları ictimai-iqtisadi və siyasi hüquqlarının itirilməsi ilə heç cürə barışa bilmirdilər. Haкimiyyəti ələ кeçirmiş RSDF(b)P tezliкlə ölкədə onlara qarşı çıxan siyasi qüvvələrə «əкsinqilabçı» damğası vuraraq onları tezliкlə əzməк və müstəqilliк əldə etmiş əsкi çar Rusiyası xalqlarının milli müstəqilliyini, azadlığını boğaraq onların bərəкətli torpaqlarını, təbii faydalı qazıntılarını ələ кeçirib Rusiya dövlətinə qatmaq vəzifəsini günün birinci vacib məsələsi кimi qarşılarına qoymuşdular. Xüsusilə Azərbaycan torpaqlarına olan iddialarından əl çəкməк istəmirdilər. Azərbaycanın ildə iкi dəfə məhsul verən torpaqları, sənayesini işlədən neftindən əl çəкməк istəmirdilər.

1917-ci ilin noyabr ayında Sovet Rusiyası tərəfindən elan olunmuş Rusiya xalqlarının hüquq Bəyannaməsi, habelə Rusiya və Şərqin müsəlman zəhmətкeşlərinə, zəhmətкeş və istismar olunan xalqın hüquq Bəyannaməsi кimi mühüm sənədlər Azərbaycana aid edilmirdi. Halbuкi, V.İ.Leninin imzası ilə elan olunmuş bu sənədlər кeçmiş Rusiya imperiyasında yaşayan bütün xalqlara azad surətdə, ayrılmaqla və daxil olmaqla öz hüquqlarını təyin etməк hüququ vermişdir. Qafqaz istiqamətində hücuma кeçən Qızıl ordu general Deniкinin Don кazaкlarından təşкil olunmuş кönüllü ordu birləşməsinə ağır silahlardan istifadə edərəк güclü zərbələr endirərəк 1920-ci ilin yanvar ayında Tsaritsın, mart ayında isə кönüllü Don ordusunun son dayağı olan Novorossiysк şəhərlərini ələ кeçirdilər.

Sovet Rusiyasının cəbhələrdə qazandığı qələbələr onun siyasi mövqeyini möhкəmləndirirdi. Hərbi qələbələr öz növbəsində qonşu, xüsusilə Qızıl ordunu işğal etməк məqsədini güddüyü dövlətlərə qarşı diplomatiк təzyiqi gücləndirirdi. 1920-ci ilin yanvarından

aprelinədək Azərbaycana Xalq Cümhuriyyətinə qarşı diplomatik qarşıdurma səviyyəsinə qədər yüksəlmiş notalar mübadiləsində özünün aydın əksini tapmışdır. Bolşevik Rusiyasının 1920-ci il cəbhələrdə qələbəsindən sonra ucqarlarda olan müstəqil dövlətlərə qarşı başladığı diplomatik oyunbazlığın arxasında, xüsusilə Bakı neftinə və Azərbaycan torpaqlarına sahib olmaq iddiaları dururdu. V.İ.Leninin 1920-ci il mart ayının 17-də Qafqaz cəbhəsinin hərbi inqilab Şurasına göndərdiyi teleqramda Bakının işğal edilməsi məsələsi açıq-aydın göstərilmişdi. Teleqramda deyilirdi: «Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli sovet hakimiyyəti hazırlığını tamamilə yəqin etmək lazımdır... Qüvvələr yeridilməsi haqqında Baş komandanla şərtləşin» (1, 164).

Sovet Rusiyasının Azərbaycana hücumundan əvvəl Moskvaya gəlmiş erməni nümayəndələri ərazi güzəştləri muqabilində Azərbaycan hökumətini devirmək işində öz yardımını təklif edirdilər. 1920-ci ilin martında Qarabağın dağlıq hissəsində Azərbaycan Respublikasına qarşı ermənilər qiyam qaldırdılar. Eyni zamanda erməni hərbi birləşmələri Azərbaycanın Qazax və Naxçıvan torpaqlarına hücumlar etdilər. Qızıl Ordu ilə razılığa əsasən Azərbaycanın qərbində müharibəyə başlamaq planına uyğun olaraq 1920-ci ilin mart ayının 22-də gecə saat üçdə Novruz bayramı günlərində ermənilər qəflətən Xankəndi qarnizonuna, Şuşa, Əsgəran, Xocalı və Tərtərdə yerləşən Azərbaycan Milli ordusunun hərbi hissələrinə hücum etdilər. Ermənilərin hücumu nəticəsində Azərbaycan Ordusunun 16 nəfər zabiti və xeyli əsgəri şəhid oldu. Xankəndi Qarnizonunun rəisi general Qacarın başçılıq etdiyi ordu zabitləri tezliklə müdafiəni təşkil edərək, erməni hərbi dəstələrini Xankəndindən kənara atmışdılar. Lakin düşmən Əsgəran qalasını ələ keçirərək Xankəndində olan Qarabağ süvari alayı, Cavanşir piyada alayı və artilleriya batareyasını mühasirəyə ala bildilər. Şuşa üzərinə ermənilərin hücumu Cavanşir alayının bir batalyonu tərəfindən dəf olundu. Elə bu zaman Şuşanın erməni məhəlləsində yanğın baş verdi. Əsgəran qalasını geri almaq və Qarabağda erməni qiyamını yatırmaq üçün Azərbaycan hökuməti general Həbib Səlimovun komandasında milli ordunun böyük bir hissəsini Qarabağa göndərməyə məcbur oldu. Mart ayının 29-da Azərbaycan qoşunları Ağdamdan Əsgərana hücuma keçdi. Hücuma keçən Ağdam dəstəsi, Zaqatala piyada alayı, Şirvan alayı və Tərtər süvari alayının hissələri ilə gücləndirilmişdi. Aprel ayının 3-də hücuma keçən Ağdam dəstəsi gərgin döyüşlər nəticəsində erməni qüvvələrini məğlub edib Əsgəran və Xocalını azad etdi. Erməni daşnak qiyamçılarının başçısı Dəli Qazar öldürüldü. Aprel ayının 5-də Ağdam dəstəsi Şuşaya daxil oldu. Aprel ayının 9-dan 11-nədək Şuşa yaxınlığında erməni qüvvələrinin hərbi qərargah və silah sursatı yerləşən Keşişkənd ətrafında gərgin döyüşlər baş verdi. Bu döyüşdə Qarabağdakı daşnak erməni qüvvələrinə sarsıdıcı zərbə vuruldu və çox güclü möhkəmləndirilmiş hərbi bazası məhv edildi. Azərbaycan ordusunun

təzyiqinə davam gətirməyən erməni hərbi hissələri ailələrini Zəngəzura köçürüb kiçik dəstələrlə Azərbaycan kəndlərinə hücum edirdi. Ağdam silahlı könüllüləri Ağdam hərbi dəstəsi ilə birlikdə Dağlıq Qarabağın və Zəngəzurun ərazisində fəallaşan erməni dəstələrini susdururdular (16,282-283). Qarabağda daşnak erməni qiyamının yatırılması münasibəti ilə Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarov demişdi: «Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində bir çox müharibədə oldum, fəqət sizin qədər qəhrəman əsgərlərə nadirən təsadüf etdim. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz qanınızla gənc Azərbaycan ordusunun namusunu müdafiə etdiniz» (17, 69). Ermənilərin xəyanətkarlığında və təcavüzkarlığında məqsəd Azərbaycan Xalq Cumhuriyyətinin nizami ordu hissələrinin Bakıdan və Dağıstan sərhədindən çıxarılaraq Qarabağın dağlıq hissəsinə gətirilməsi və nəticədə aprel işğalı ərəfəsində Dağıstan sərhədindən başlayaraq Bakı şəhərinə kimi olan Azərbaycan torpaqlarını müdafiəsiz qoymaq idi. Aprel ayının 21-də Qafqaz cəbhəsi komandanlığının XI Qızıl Ordu və Volqa-Xəzər donanması rəhbərliyinə göndərdiyi əmrində göstərilirdi ki, Azərbaycanın əsas hərbi qüvvələri qərb cəbhəsində ermənilərə qarşı döyüşdədir. Aprel ayının 27-də Azərbaycan sərhədini keçib Yalama-Bakı əməliyyatını yerinə yetirsinlər. Aprel ayının 23-də verilmiş əmrdə dəyişiklik olundu və sərəncam verildi ki, XI Ordunun son vəzifəsi Bakı quberniyasını tutmaq deyil, bütün Azərbaycanı ələ keçirməkdir (2, 310).

1920-ci il aprel ayının 26-da Azərbaycan ordusu tərəfindən Zəngəzurda və digər sərhəd bölgələrində sarsıdıcı zərbələr alaraq məğlubiyyətə uğradılmış erməni hərbi birləşmələrini darmadağın olmaqdan qurtarmaq üçün Ermənistan hökuməti barışıq-sülh imzalamaq xahişi ilə Azərbaycan Xalq Cümhuriyyətinə müraciət etdi.

Aprel ayının ortalarından başlayaraq XI Ordunun birləşmələrinin Azərbaycan sərhədində cəmləşməsi başlandı. Azərbaycana hücum etmək üçün 20-28-32-ci atıcı diviziyaları (20 minə yaxın süngüsü), sonradan 2-ci süvari korpusunda birləşdirilən 7-8-ci süvari diviziyaları və Taman süvari briqadası (cəmi 7 min qılınc) ayrılmışdı. Dərbənddə yerləşən beş zirehli qatar, həmçinin bir neçə aviasiya dəstəsi də XI Ordunun sərəncamında idi (2, 148). Ordu komandanı M.Levandovskinin 25 aprel tarixli əmri ilə hərbi hissələrə dəqiq olaraq tapşırıqlar verdi. 2-ci korpusa göstəriş verdi ki, əsas qüvvələri ilə birlikdə aprel ayının 30-a kimi Şamaxı-Ağsu ərazisini ələ keçirməli və Kürdəmir stansiyasında Bakı-Gəncə dəmir yolunu bağlamalı idi (3, 522).

Dəmiryol döyüş məntəqəsinin rəisi M.Q.Yefremova dörd zirehli qatar və 28-ci diviziyanın 299-cu atıcı alayının iki rotasından ibarət desantla birlikdə (cəmi 350 əsgər) sürətli hərəkətlə Bakıya soxulmaq tapşırığı verilmişdi (3,522). Azərbaycan ordusunun əsas qüvvələrinin Qarabağ, Zəngəzur və Qazax bölgəsində olduğundan, şimal sərhədində cəmisi üç min nəfərlik nizami qoşun dəstələri və ehtiyat batalyonu (onlara verilmiş zirehli qatarla birlikdə cəmi beş

min süngü və qılınc) yerləşdirilmişdi (4, 162).

XI Ordunun 72 minlik hərbi hissələri (17, 70) aprel ayının 26-da Azərbaycan sərhədlərini keçərək, sürətlə Bakıya doğru irəliləməyə başladı. Azərbaycan Milli Ordusunun kiçik dəstələri XI Ordunun hücumunun qarşısını ala bilmədi. Hərbi Nazir Səməd bəy Mehmandarov xəstə olduğuna görə onu əvəz edən General Əliağa Şıxlinski Dağıstan sərhədindən Bakı şəhərinə kimi dəmiryol boyu minalanmış körpülərin partladılması əmrini ləğv etdi. Nəticədə XI Qızıl Ordunun dəmir yolundan rahatca istifadə edərək sürətlə Bakıya doğru irəliləməsinə lazımi imkan və şərait yaradılmış oldu. 1920-ci il aprel ayının 27-də Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti XI Ordunun süngülərinə arxalanan bolşeviklər tərəfindən devrildi. Aprel ayının 28-də Azərbaycan K(b)P MK yeni yaradılmış Azərbaycan Müvəqqəti İnqilab Komitəsini respublikanın yeni ali siyasi hakimiyyət orqanı elan etdi. Azərbaycan İnqilab Komitəsi xalqa olan ilk müraciətində elan etmişdir ki, XI Orduya qarşı silahlı müqavimət göstəriləcəyi təqdirdə terrora əl atacaqdır (5, 11-13). Aprel ayının 30-a kimi XI Ordu Nuxa, Ağdaş, Şamxor, Kürdəmirdə hakimiyyəti ələ keçirdi. Eyni zamanda XI Ordunun süvari və piyada bölmələri Şamaxı, Salyan, Göyçay, Şəki, Zaqatala və Balakəni ələ keçirdilər. Mayın 1-də Gəncəni, 3-də Lənkəranı, 4-də Astaranı tutdular (6, 24-25).

Mayın əvvəllərində Yevlax tərəfdən Qarabağa soxulan XI Ordunun hərbi hissələrinin qarşısını almaq üçün toplanmış Qarabağın türk-müsəlman əhalisindən olan könüllü dəstələr zirehli avtomaşın və qatarların təzyiqi altında geri çəkilməyə məcbur oldular. May ayının ortalarına kimi XI Ordunun hərbi hissələri Qarabağ bölgəsində tam nəzarətə sahib oldu. Özünü Qarabağ İnqilab Komitəsinin sədri elan etmiş Qarabağ general qubernatoru Xosrov bəy Sultanov hakimiyyətdən kənarlaşdırıldı. Bolşeviklər hakimiyyəti ələ keçirdilər. Mayın 11-də Qaryagin, mayın 15-də Şuşa İnqilab komitəsi təşkil olundu. 1920-ci il may ayının 15-də isə respublikanın ərazisində olan meşələrin, suların və yeraltı sərvətlərin milliləşdirilməsi elan olundu (7, 249-250).

Şura hökumətinin gördüyü tədbirlər nəinki öz müsbət nəticəsini vermədi, əksinə yerli əhalinin getdikcə narazılığına səbəb oldu. Buna səbəb Birinci Dünya Müharibəsi dövründə, Bakı Kommunası və Mərkəzi Kaspi Diktaturası hakimiyyəti illərində Azərbaycan kənd əhalisinin var-yoxdan çıxmasından o qədər də böyük müddət keçmədiyi bir zamanda yenidən XI Qızıl Ordu tərəfindən işğal olunması idi. 1913-1920-ci illər Azərbaycan kəndinin ən çətin və məşəqqətli bir dövrü olmuşdur. Bu illərdə kəndlilərdən külli miqdarda müsadirə edilmiş iş heyvanlarının çatışmaması, ara vermədən ərzaq məhsullarının toplanması, su arxlarının və kəhrizlərin bərpa olunmaması nəticəsində suyun azalması, əkin sahələrinin kiçilməsi, kənd təsərrüfatı alətlərinin sıradan çıxması və yenilərinin düzəldilməməsi, kənd təsərrüfatında tələb olunan əmək alətlərinə ehtiyac özünü açıq şəkildə göstərməkdə idi. Kəndlilərin çoxu

yeri taxta xış vasitəsilə şumlayırdılar. Erməni daşnaklarının Azərbaycan xalqına qarşı aparmış olduğu müharibə nəticəsində türk-müsəlman əhalisi yaşayan 636 kənd dağıdılmış, 30 mindən çox kəndli evləri yandırılmışdı (8, 115).

1913-cü ilə nisbətən 1921-ci ildə mal-qaranın bütünlükdə sayı azalaraq müharibədən əvvəlki səviyyəisinin qırx faizini təşkil edirdi, atların isə üçdə biri yox olmuşdu. Qaramalın sayı iki dəfə, davarın sayı üç dəfə azalmışdı (9, 57). Erməni daşnak quldur dəstələrinin basqınları Qarabağ, Gəncə-Qazax ərazisində yaşayan elatların yaz-yay aylarında dağlara köçməsinə maneçilik etmələri, onları talan etmələri, 1918-1920-ci illərdə dağa köçürülə bilməyən qoyun, keçi və iri buynuzlu heyvan sürüləri Qarabağ-Mil düzündə, Ceyrançöl düzündə susuz isti yay aylarında istiyə düşüb tələf olmuşdur. Bu çətinliklərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyəti dövründə azadlığı, müstəqilliyi dadmış Azərbaycan əhalisini yenidən əsarət altına salmağa çalışan XI Qızıl Ordu siyasi-iqtisadi və mədəni müstəqilliyi ləğv etməyə çalışırdı. Rusiya hökuməti V.İ.Leninin rəhbərliyi altında Azərbaycanda həyata keçirdiyi hərbi kommunizm siyasətini dəstəkləyirdi. XI Qızıl Ordunun yüz minlərlə əsgərlərinin ərzaqla, geyimlə, atlarının yemlə təmin olunması, xüsusilə Azərbaycan kənd əhalisinin müxtəlif hərbi mükəlləfiyyətli işlərə cəlb olunması onların vəziyyətinin daha da ağırlaşmasına səbəb olmuşdur.

Respublikada həyata keçirilən hərbi kommunizm siyasəti nəticəsində kəndlilərin son ərzaq ehtiyatlarının, qoşqu heyvanları və arabalarının XI Ordu əsgərləri tərəfindən qarət olunması Azərbaycan kəndlilərinin hiddətlənməsinə səbəb oldu. XI Ordunun gəlişini sükutla qarşılayan Azərbaycan xalqının sakitliyini pozmuş rus əsgərlərinin özbaşınalığı, qarətçiliyi, xüsusilə yerli əhalinin milli mənafeyi ilə hesablaşmaması və günahsız on minlərlə adamların güllələnməsi yerli türk-müsəlman əhalisinin daha da qəzəblənməsinə səbəb olurdu. 1920-ci il Aprel çevrilişindən sonra Azərbaycanın türk-müsəlman əhalisini vəhşicəsinə qıran, güllələyən XI Ordunun Pankratovun başçılığı altında olan – Xüsusi şöbəsi, Azərbaycan Fövqəladə Komissiyası və İnqilab komitələrinin üzvləri yerli əhalinin milli ləyaqətlərini tapdalayaraq, onların şəxsi hisslərinə toxunurdular.

XI Ordunun Xüsusi şöbəsinin Azərbaycanda fəaliyyəti ilə əlaqədar olaraq, M.Ə.Rəsulzadə yazırdı: «Azərbaycanın həqiqi diktatoru, cəllad başı Pankratov idi. Pankratovun əmri fövqündə bir əmr yox idi» (10,163). XI Ordunun siyasi şöbəsinin rəisi olmuş Pankratovun başçılığı altında olan Xüsusi şöbədə çoxlu miqdarda erməni millətindən olan daşnak fikirli Azərbaycanın türk-müsəlman əhalisinə qarşı düşmən əməllərini həyata keçirən şəxslər fəaliyyət göstərirdilər. A.Mikoyan Bakıda erməni millətindən olan yüksək vəzifəli şəxslərin, Azərbaycan xalqının düşmənlərinin mənəvi dayağına çevrilmişdi (11, 129).

Bolşeviklərin Azərbaycan Milli Ordusuna qarşı olan etimad-

sızlığının getdiкcə güclənməsi qısa bir zamanda onun tamamilə ləğv olunması haqqında qəti bir qərarın verilməsinə səbəb oldu. Azərbaycan ordusunun əsas hissəsi Qarabağ bölgəsində yerləşirdi. Erməni qiyamlarına və təcavüzünə qarşı yerləşdirilmiş bu qüvvə qəzalarda XI Ordunun və bolşeviкlərin yeni haкimiyyətinin yerli türк-müsəlman əhalisinə qarşı etdiкləri özbaşınalığa biganə qalmır və onların qarşısını almağa çalışırdı. Bu Milli Ordu ilə XI Ordu bölmələri arasında münaqişələrə gətirib çıxarırdı. Azərbaycan ordusunun Cavanşir, Ağdam, Tatar, Şəкi süvari alayları, Baкı piyada və iкi topçu diviziyası Qarabağın müxtəlif yerlərində yerləşirdilər. Hərbi bölmələrin tərкibində altı minə qədər əsgər var idi. Əslində bu hərbi hissələr Qarabağa tam nəzarət etməкlə bolşeviк haкimiyyətinin nüfuzunu heçə endirmişdilər (12, 113). Buna görə XI Ordunun hərbi кomandanlığı Qarabağda olan XI Ordunun hərbi hissələri qarşısında əsas və günün vacib məsələsi кimi Azərbaycan Milli Ordusu bölmələrini tərкsilah etməк vəzifəsini qoymuşdu.

Azərbaycan ərazisində XI Ordunun hərbi hissələrinə qarşı ilк üsyan Qarabağın Tərtər bölgəsində başladı. 1920-ci ilin may ayının 21-də Tərtərdə olan XI Ordunun 32-ci piyada diviziyasının 282-ci alayı yerini Qızıl Ordunun digər hissələrinə verərкən, Azərbaycan Milli Ordusunun III Şəкi süvari alayına məxsus atları aparmaq istəmişlər. Azərbaycan Milli Ordusunun əsgərləri müqavimət göstərmişlər. XI Ordunun döyüşçüləri top atəşindən istifadə edərəк atları aparmağa çalışmışlar. Şəкi III süvari alayı məcbur olub XI Ordunun 32-ci piyada diviziyasının 282-ci alayının əsgərlərini qırmışlar (11,134).

XI Ordu кomandanlığı Şəкi alayının məhv olunması barəsində əmr verdi. Şəкi alayının əsgərləri Bərdədən Yevlaxa gedərкən yolda Gəncə üsyanının başlanmasını eşitdilər. Alayın кomandiri Ehsan xan Naxçıvansкi bir neçə hərbçi ilə Yevlaxa gedib məlumat öyrənməк istərкən tutulub XI Ordu qərargahına gətirilib və oradaca güllələnmişdir. Qalan əsgərlər Qızıl Ordunun onları təqib etdiyini görüb dağılışırlar. Laкin 32 nəfər – 4 zabit və 28 əsgər son nəfəslərinədəк düşmənlə vuruşacaqlarını bildirirlər. Onlar döyüşərкən Bərdəyə doğru çəкilib böyüк sayda partizan dəstələri ilə birləşirlər (11,134).

1920-ci il may ayının ortalarında Gəncədə XI Qızıl Ordu ilə şəhər əhli arasında toqquşma gözlənilirdi. Gəncə qubernatoru Xudadat bəy Rəfibəylinin tutulub, Baкıya gətirilərəк ermənilər tərəfindən istintaq edilib may ayının 20-də Nargin (Böyüк Zirə) adasında güllələnməsi vəziyyəti daha da gərginləşdirdi (11, 136). May ayının 25-də axşam saat 3-də bir top atəşinin açılması ilə işğalçı XI Orduya və onların əlaltısı olan bolşeviк üsul-idarəsinə qarşı üsyan başlandı. Gəncədə olan Azərbaycan Milli Ordusunun bölmələrinin sayı 1800 nəfər idi. Gəncə qarnizonu mayın 25-dən 26-na кeçən gecə üsyan edən milli qüvvələrə кöməк etməк üçün silaha əl ataraq şəhəri ələ кeçirdilər(12,111).

Üsyançıların başında general Şıxlinsкi, polкovniк Xanınbə-

yov, Xoyski qardaşları, Qəmbər Ələkbərov və şahzadə Məhəmməd Mirzə Qacar dururdular. 500 nəfər hərbçi XI Ordunun 2300 nəfər əsgəri olan hərbi hissələrini tərksilah etdi. Şura hökumətinin rəhbər işçiləri həbs olundular. Yerli əhalinin milli ordu hissələrinə qoşulması nəticəsində üsyançıların sayı 10 min nəfəri ötmüşdü (6, 45). Mayın 26-da günortaya kimi şəhərin çox hissəsinə nəzarəti ələ keçirdilər. Bölgədə olan ermənilər XI Ordu tərəfində döyüşürdülər. Mayın 27-də hücuma keçən XI Qızıl Ordu hissələri böyük itki verərək geri çəkildilər (6,46). Mayın 28-də yeni qüvvələr hesabına güclənən XI Ordunun üç diviziyası Gəncəni amansız top atəşinə tutdu. İkinci korpusu yeni canlı qüvvələrlə gücləndirərək zirehli qatarlardan və avtomaşınlardan, ağır səhra toplarından istifadə edərək may ayının 31-də Gəncə üsyançıları üzərinə hücuma keçdilər. Xalq hərəkatı qan dəryasında boğulurdu (8, 257). Mayın 31-də axşam Gəncəni ələ keçirən XI Qızıl Ordudan 8500 Azərbaycan Milli Ordusundan və mülki əhalidən 8000-13000-ə qədər adam həlak oldu (11, 136).

Qüvvələr nisbətinin qeyri-bərabərliyi üsyanın taleyini XI Ordunun xeyrinə həll etdi. Gəncə üsyanı yatırıldıqdan sonra XI Ordu tərəfindən yerli türk-müsəlman əhalisinə və Azərbaycan Milli Ordusunun əsgər və zabitlərinə divan tutuldu. Zabitlərin əksəriyyəti, əsgərlərin hər beş-on nəfərindən biri güllələndilər. O cümlədən general-mayor Məhəmməd Mirzə Qacar, general-mayor Gavad bəy Şıxlinski, polkovnik Cahangir bəy Kazımbəyov qətlə yetirildilər. Azərbaycan ziyalılarından görkəmli maarif xadimi Firudin bəy Köçərli və minlərlə ziyalı XI Ordunun Xüsusi şöbəsi tərəfindən güllələnmişdilər. Azərbaycan Respublikası Xalq Komissarları Şurası və İnqilab Komitəsinin sədri N.Nərimanovun səyinin nəticəsində ən məşhur azərbaycanlı generallardan Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski rus-bolşevik cəlladlarından xilas oluna bildilər (13,43).

Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Gəncə şəhərində XI Qızıl Ordu və onlara kömək edən erməni daşnak dəstələrinin vəhşiliklərinə cavab olaraq Qarabağın igid türk-müsəlman əhalisi iyun ayının 5-də Şuşa, Ağdam, Bərdə, Tərtər bölgələrində silahlı üsyana qalxaraq XI Qızıl Ordunun 28-ci atıcı diviziyasının alaylarını tərksilah etdilər. Qarabağ və Zəngəzurda dayanan 28-ci atıcı diviziyası yerli türk-müsəlman əhalisinin təhlükəsizliyini təmin etmək iqtidarında deyildi. 28-ci diviziyanın rus zabit və əsgərləri erməni daşnak quldur dəstələrinə göz yumur, onların quldur hərəkətlərinin qarşısını almırdılar.

Qarabağda işğalçı XI Qızıl orduya və bolşevik üsul-idarəsinə qarşı başlanmış üsyanda Azərbaycan piyada polku və yerli bəylərin silahlı dəstələri iştirak edirdi. Üsyana bir qrup türk zabiti və əsgərləri ilə köməyə gəlmiş türk generalı Nuru paşa rəhbərlik edirdi. Nuru paşanın çağırışı ilə Dağıstanın könüllü dəstələri də Qarabağ üsyançılarına kömək edirdilər. XI Qızıl Ordunun II süvari korpusu və 32-ci atıcı diviziyasının hissələri iyun ayının 10-da Qarabağ üs-

yançıları üzərinə hücuma keçdilər (14, 43). XI Ordunun güclü süvari hissələri, zirehli maşınların, səhra toplarının və hərbi təyyarələrin köməyi ilə Azərbaycan Milli Ordusunun mövqelərinə və Qarabağın könüllü üsyançı dəstələri üzərinə hücuma keçdilər. Bərdə və Tərtər istiqamətində hücuma keçən XI Ordunun hərbi hissələri Qarabağ üsyançılarının və Azərbaycan Milli Ordu əsgərlərinin müqavimətini ağır səhra topları və zirehli avtomaşınların və hərbi təyyarələrin köməyi ilə çətinliklə dağıdaraq Bərdəni və Tərtəri ələ keçirdilər. Müqavimətə başçılıq edən Nuru paşa və polkovnik Zeynalov müdafiəni mütəşəkkil qaydada qururdular. XI Qızıl Ordunun əsgərləri geri çəkilməyə məcbur olan yerli əhaliyə amansız divan tutur, yol kənarında yerləşən bəylik kəndlərini yandırırdılar.

XI Qızıl ordunun əsgərləri Qarabağın Bərdə bölgəsində yerləşən Köçərli, Şahvəllər, İmirli, Tərtərin Sarıcalı, Qaraqoyunlu, Ağdam bölgəsinin Sarıcalı-Quzanlı kəndi ətrafında yerləşmiş Soflu, Aslanbəyli, Salahbəyli, Hüseynbəyli, Sarıcalısı adlanan kəndlərini, Bərdə, Ağdam yoluna yaxın olan Qarvənd, Nəmirli kəndlərində olan abad bəy evlərini qarət edib yandırmışlar (15). Qarabağda üsyan etmiş türk- müsəlman əhalisinin və Nuru paşa başda olmaqla Azərbaycan Milli Ordusunun inadlı müqavimətinə baxmayaraq XI Ordunun hərbi qüvvələri iyunun 11-də Ağdamı, iyunun 14-də Xankəndi və Şuşanı ələ keçirdilər (12, 114). Əvvəl Karyagin və Cəbrayıl istiqamətində geri çəkilən Azərbaycan Milli ordusu və Qarabağ üsyançılarının bir hissəsi doğma vətənlərini tərk etməyə məcbur oldular. XI Ordunun Xüsusi şöbəsi, Azərbaycan Fövqəladə Komissiyası və inqilab komitələri Azərbaycanın türk-müsəlman əhalisinə qarşı terrora keçərək Azərbaycan Milli Ordusunun 12 generalını, 27 polkovnik və podpolkovniki, 46 kapitan və ştabs-kapitanı, poruçik və podporuçik, 146 praporşik, 266 nəfər başqa hərbi işçiləri güllələmişlər. 1920-ci il aprel ayının 28-dən 1921-ci ilin avqustuna kimi Azərbaycanda 48 min adam qırmızı terrorun qurbanı olmuşdur (16, 87).

Qarabağ Gəncə üsyançılarının məğlub olmasına baxmayaraq onlarla həmrəylik və XI Ordunun hərbi hissələrinə nifrət əlaməti olaraq, Zaqatala, Quba və Lənkəran bölgələrinin əhalisi üsyana qalxdılar. (6, 48-49). Azərbaycan xalqının hiddətlənməsindən və bununla bərabər Bakı neftini yenidən itirəcəyindən qorxan Rusiya Cənubi Qafqazdakı hərbi siyasi vəziyyətinin kəskinləşməsini nəzərə alaraq V.İ.Leninin başçılığı ilə RSFSR hökümətinin gənc Azərbaycan SSR-ni qorumaq bəhanəsi ilə 1920-ci ilin noyabr ayında qurudan və dənizdən Bakı şəhərinin ətrafını möhkəmləndirmək üçün buraya ağır toplar gətirmək haqqında göstəriş verdi. (18). Bu göstərişə uyğun olaraq Azərbaycanın iri şəhərlərində və qəza mərkəzlərində böyük həcmdə hərbi əsgəri qüvvələr saxlamaq üçün RK (b) P MK siyasi bürosu 1920-ci il noyabr ayının 27-də Qafqazdakı vəziyyəti müzakirə edərək Azərbaycana XI Ordudan əlavə olaraq 7 diviziya göndərmək qərara aldı. (7, 268-269). Tarixi faktlardan aydın olur ki, 1920-ci il aprel ayının 26-dan Azərbaycan Xalq Cümhuriyyətini

işğal etməyə başlayan XI Qızıl Ordu respublikada çevriliş edərək qanuni hakimiyyəti hərbi yolla devirmişdi.

Azərbaycanda siyasi durum ciddi böhran içində idi. Xüsusilə kənd əhalisi içərisində qaçaq hərəkatı geniş vusət almaqda idi. Əhali içərisində bolşeviklərin mövqeyi möhkəm deyildi. Özlərinin siyasi vəziyyətindən qorxan bolşevik hakimiyyəti dinc əhalini özlərinə tabe etmək üçün kütləvi terrordan istifadə edirdilər.

Şura hökumətinin amansız siyasətinə baxmayaraq, 1920-1930-cu illərdə Azərbaycanın türk-müsəlman əhalisi işğalçı bolşevik siyasətinə qarşı öz etirazını bildirmiş və mübarizəsini davam etdirmişdir. Respublikanın Gəncə-Qarabağ, Zaqatala-Şəki, Quba, Cəbrayıl, Lənkəran bölgələrində Şura hökumətinə qarşı olan müqavimət dəstələri fəaliyyət göstərmişdi.

XI Ordunun süngüləri üzərində qurulmuş və Rusiyanın xammal bazasına çevrilən Azərbaycan getdikcə öz müstəqilliyini itirirdi.

**ƏDƏBİYYAT**


1. Lenin V.İ. Əsərlərinin tam külliyyatı. 37-ci cild, səh.164.
2. Директивы Главного командования фронтов Красной Армии т. III. (М. 1974).
3. Azərbaycan tarixi. V cild, (1900-aprel 1920). Bakı, 2001.
4. Дарабади П. Военные проблемы политической истории Азербайджана в начале XX века. Бакы, 1991.
5. Декреты Азревкома. Бакы, 1988.
6. İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı, 1996.
7. Azərbaycan tarixi. III cild, I hissə. Bakı, 1973.
8. Токаржевски Е.А. К вопросу о восстановлении сельского хозяйства Азербайджана в 1921-1925 годах. Труды Института Истории и Философии АН Азербайджанской ССР, 1956, т. IX..
9. Əlimirzəyev X. Sovet Azərbaycanı Böyük Oktyabr Sosialist İnqilabının yetişdirməsidir. Bakı, 1958.
10. Yaqublu N. M.Ə.Rəsulzadə, Bakı, 1991.
11. Yaqublu N. Müsavat partiyasının tarixi, Bakı, 1997.
12. İsmayılov E., Həsənov C., Qafarov T. Azərbaycan tarixi. XI sinif üçün dərslik. Bakı, 1995.
13. Azərbaycan tarixi VI cild (aprel 1920-iyun 1941). Bakı, 2000.
14. Ağdam rayonu Sarıcalı-Quzanlı kənd sakini Əliş Həsənovun dedikləri əsasında.
15. «Xəzər» 1990-cı il. № 3.
16. «Qarabağ dünən, bu gün və sabah» III Ümumrespublika elmi-əməli konfransının materialları. Bakı, 2002.
17. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). Bakı, 1990.
18. «ÜRMİK izvestiyası», № 220, 30 oktyabr 1920-ci il.

**ВОССТАНИЕ НАСЕЛЕНИЯ КАРАБАХА ПРОТИВ ОККУПАЦИОННЫХ ВООРУЖЕННЫХ СИЛ XI КРАСНОЙ АРМИИ В 1920 ГОДУ**

**Т.А.ГАСАНОВ**

**РЕЗЮМЕ**

В статье исследуется восстание населения Карабаха против оккупационных вооруженных сил XI Красной Армии в 1920 году. Раскрывается внешняя политика пришедших в результате октябрьского переворота 1917 года. В России большевики под предлогом необходимости создания союза советских республик, вновь присоединяли к России бывшие колониальные территории, в том числе территорию Азербайджанской Демократической Республики, показывается раболепствующая политика дашнакского правительства Армении по отношению к России и его враждебная позиция против Азербайджанской республики. В статье говорится об оккупации Азербайджана XI Красной Армией и ее мародерство по отношению к местному населению, а также стычки между большевистскими частями и частями АДР, расквартированными в Карабахе, о восстании населения против произвола солдат XI Красной Армии, об оснащении XI Красной Армии многожеланной ковалерией, тяжелой полевой артиллерией,брономашинами, в три-четыре раза превосходившими силы повстанцев. Отмечается, что при подавлении восстания Карабахского населения революционные комитеты XI Красной Армии уничтожали села и расстреливали тысячи людей из числа мужского населения. В результате, построенный на штыках XI Красной Армии, Советский Азербайджан утратил самостоятельность-суверенитет, превращаясь в сырьевую базу России.